MÜHƏNDİS-İSTEHKAMÇILARIMIZ XİDMƏTDƏ SAYIQLIQ NÜMAYİŞ ETDİRİR

67987 saylı hərbi hissənin mühəndis xidməti döyüş hazırlığına görə fərqlənən xidmətlərdən biridir. Xidmət rəisi vəzifəsini müvəqqəti icra edən kapitan Taleh Murtuzəliyev bildirdi ki, əsas vəzifə qeflətən qarşıya çıxan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsidir. O, hissənin mühəndis təminatının təşkilinə, şəxsi heyətin mühəndis silahları vasitələri ilə təchiz edilməsinə, onlardan düzgün istifadə olunmasına və sazlığına cavabdehlik daşıyır. Kapitan Taleh Murtuzəliyev xidməti vəzifə borclarının icrasına məsuliyyətlə yanaşır.

Söhbət zamanı qeyd olundu ki, mühəndis-istehkam manqasının döyüş hazırlığına, hərbi intizamına xüsusi diqqət yetirilir. Bununla əlaqədar, təsdiq olunmuş plana əsasən, istehkamçı yarımqrupun döyüş hazırlığı ayda iki dəfə (bir dəfə gecə, bir dəfə gündüz) yoxlanılır. Məlumdur ki, döyüş hazırlığını şərtləndirən əsas cəhətlərdən biri hərbi qulluqçuların mənəvi-psixoloji durumunun qənaətbəxş olmasıdır. Döyüş hazırlığının yoxlanılması zamanı əsasən ərazidə minaların tapılması, avtomobillərin yoxlanılması və T.Murtuzəliyev hərbi qulluqçuların peşə hazırlığından danışarkən istehkamçıların fəaliyyətinin təkmilləşdirilməsinin yarımqrupun şəxsi heyəti hər gün təyin olunmuş obyektlərin yoxlanılması, həmçinin qeflətən qarşıya çıxan tapşırıqların icrası zamanı partlayıcı maddələrin aşkar olunaraq, zərərsizləşdirilməsi üçün xidmətə cəlb olunur. Bu zaman xidməti itləri yetişdirmə məntəqəsindən gələn kinologların köməyindən də istifadə olunur. Kapitan T.Murtuzəliyev hərbi qulluqçuların peşə hazırlığına görə birinci yerə layiq görülməsinə töhfələrini verib. 2017-ci il yanvar ayının 10-da isə Nardaran qəsəbəsində yerləşən polis bölməsi ilə birlikdə əməliyyata cəlb olunan istehkamçılarımız partlayıcı maddələri aşkar edərək polis bölməsinə təhvil verəcəklər ki, bu da yarımqrupun uğurlarından biri kimi qiymətləndirilə bilər. Xidmətin uğurlu təşkili və aparılmasında yarımqrup komandiri baş gizir Sənan İbayevin fəaliyyətini xüsusilə vurğulamaq yerinə düşər. Həmçinin, baş çavuş Rövşən Qurbanov və baş çavuş Vüsal Yusifov da fərqlənənlər sırasındadırlar.

Kapitan T.Murtuzəliyev istehkam qrupunun şəxsi heyətinin may ayında ölkəmizdə keçirilməsi nəzərdə tutulan IV İslam Həmrəyliyi Oyunları zamanı xidmətə-döyüş tapşırıqlarının icrasına tam hazır olduğunu da əminliklə vurğuladı. Gösterilən etimadı doğrultmağa, bundan sonra da peşəkarlıq nümayiş etdirərək, Daxili Qoşunların adını hər zaman, hər yerdə uca tutacaqlarına söz verdi.

leytenant N.Ağayeva

HƏRBİ QOSPİTALIN QABAQCIL ŞÖBƏSİ...

Qospitalın mövcud infrastrukturu və təchizatı, tibbi personalın yüksək ixtisas səviyyəsi hərbi qulluqçularımıza hərtərəfli xidmət göstərməyə imkan verir

Daxili Qoşunların Hərbi Qospitalının həkimlərini ön cəbhədə döyüşlər getdiyi dövrdən tanıyıram. Müharibə sınaqları günlərində onların fədakarlığının şahidi olmuşam. Hərbi Qospital böyük inkişaf yolu keçib və bu gün öz potensialı, zəngin təcrübəsi ilə fərqlənir. Şəxsi heyətin, hərbi qulluqçularımızın ailə üzvlərinin, veteranlarımızın sağlamlığı keşiyində uğurlu fəaliyyət göstərən Hərbi Qospital öz işini ildən-ilə təkmilləşdirir.

Burada olarkən qospitalın rəisi polkovnik Şəmsəddin Heydərovla, habelə hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant İlqar Həmidovla görüşdüm. Qospitalın bugünkü həyatı ilə bağlı onlardan maraqlı məlumatlar öyrəndim.

Polkovnik Ş.Heydərov Daxili Qoşunların komandanlığı tərəfindən qospitalın inkişafına göstərilən diqqət və qayğını xüsusi vurğuladı. Qeyd etdi ki, qospitalın mövcud infrastrukturu və təchizatı, tibbi personalın yüksək ixtisas səviyyəsi hərbi qulluqçularımıza hərtərəfli xidmət göstərməyə imkan verir.

Burada ağır travma səbəbindən müalicə olunan Daxili Qoşunların veteranı, ehtiyatda olan polkovnik Bəxtiyar Abdullayevə baş çəkərkən, o, həkim və tibb bacılarından razılıq etdi. Aparılan müalicənin öz nəticəsini verdiyini bildirdi.

Qospitalın Funksional diaqnostika şöbəsi ötən ilin yekunlarına görə qabaqcıl olub. Bu nəticənin əldə edilməsində şöbənin bütün kollektivinin əməyi var. Aydındır ki, müsbət göstəricilər iş sisteminin düzgün qurulması, icra intizamı, funksional vəzifələrin dəqiq yerinə yetirilməsi, həkimlərin və orta tibbi heyətin yüksək ixtisas və mənəvi-psixoloji hazırlığına əsaslanır.

Şöbədə ilk baxışdan səliqə-sahman nəzəri cəlb edir. Burada müasir model tibbi avadanlıq və qurğular quraşdırılıb. Həmin avadanlıq və qurğular vasitəsilə müayinələr zamanı dəqiq diaqnozlar qoyulur. Dəqiq diaqnoz isə xəstəliklərin aşkar edilməsi və düzgün müalicəsində başlıca şərtlərdən biridir. Mövcud texniki təchizat səyyar iş rejimində fəaliyyət göstərməyə də imkan verir.

Funksional diaqnostika şöbəsinin rəisi tibb xidməti kapitanı Vəsilə Əsgərova təcrübəli həkimdir. 2009-cu ildən şöbənin rəisidir. Vəzifə borclarına vicdanlı münasibəti, təşkilatçılıq qabiliyyəti, işgüzarlığı nəzərə alınaraq ona bu etimad göstərilib. Kapitan V.Əsgərova ilə söhbət əsnasında öyrəndim ki, üç bacısı həkimdir. Onlar müəlliməsə çalışırlar. Ailədə yeganə hərbi həkim odur. Öz peşəsinə qəlbən bağlı olduğunu, hərbi həkim olmasından qürur duyduğunu vurğuladı. O, mənə şöbənin fəaliyyəti ilə yaxından tanış etdi. Bildirdi ki, şöbəyə daxil olan hər bir hərbi qulluqçu qayğı ilə əhatə olunur. Həqiqətən də burada müayinə olunmağa gəlmiş hərbi qulluqçulara gördüyüm həssas münasibət xoş təəssürat yaratdı.

Kapitan V.Əsgərova 2013-cü ildə qardaş Türkiyədə məşhur Gülhanə Hərbi Tibb Akademiyasında ixtisasartırma kursu keçib. Tabeliyindəki həkimlərə öz təcrübəsini bölüşür. O, şöbənin həkim, tibb bacıları, laborant və mülki işçilərinin iş və fərdi keyfiyyətlərinə yaxşı bələddir. Şöbə rəisi bu günədək dəfələrlə mükafatlandırılıb.

Tibb xidməti polkovnik-leytenantı Samir Quliyev şöbədə rentgen bölməsinin rəisi, həkim-rentgenoloqdur. O, 1999-cu ildən Daxili Qoşunlarda xidmət edir. Öz işinin peşəkarıdır. Şöbənin fəaliyyətinin təkmilləşdirilməsində əməyini esirgəmir. Gənc həkimlərin formalaşmasına da öz töhfəsini verir. Xidməti dövründə dəfələrlə mükafatlandırılıb.

Həkim-seroloq tibb xidməti leytenantı Vüsalə Əliyeva, rentgen-texnik gizir Zərifə Alhüseynova, tibb bacısı baş çavuş Gülüm Ağayeva, laborantlar gizir Rəsmiyyə Nuriyeva, baş çavuş İlhamə Mehdiyeva, baş çavuş Pərvanə Həsənova, təsərrüfat bacısı Nahidə Piriyeva, xadimə İlhamə Qurbanova öz vəzifələrinin öhdəsindən bacarıqla gəlirlər, məsuliyyət nümunəsi göstərirlər.

Beləliklə, Hərbi Qospitalın bir şöbəsinin timsalında əminliklə qeyd etmək olar ki, hərbi qulluqçularımızın sağlamlığının qorunması etibarlı əllərdədir.

Yalçın Abbasov

ŞƏXSİ HEYƏTİN İDARƏ EDİLMƏSİNDƏ BƏDƏN DİLİNİN ROLU

İnsanlar üz və bədən hərəkətlərindən kitab kimi oxuna bilərlər. Araşdırmalara görə, insanların qarşılıqlı münasibətlərində sözlərin 7-10%, səs və danışmanın 30-38%, bədən dilinin isə 55-60%-i təsirli olur. İnandırıcılıq sadəcə sözlərimizlə deyil, sözləri hansı hərəkətlərimizlə ifadə etməyimizlə də bağlıdır. "Bədən dili" və ya "hərəkətə münasibət" danışmaq kimi informasiya çatdırmanın bir üsuludur. Bu, ötürmə sözlər və cümlələrdə deyil, mimika, jestlər, toxunma (haptiks), fiziki hərəkətlər (kinezis), vücudun duruşu, bədən örtükləri (qıyafət, saç düzümü və s.), hətta şəxsin son tonu, titrəməsi və yüksəkliyi vasitəsilə ifadə olunur. Bütün bunları diqqətli müşahidə və analiz etmək insanın əsl düşüncələrini, hislərini və niyyətlərini aşkara çıxara bilər. Bu səbəbdən hərbi qulluqçuların bədən dilini öyrənməsi vacib məsələlərdəndir. Bədən dilini dəqiq bir şəkildə anlayan, qarşısındakı şəxsin davranışlarını idarə edə bilən komandir bu bacarıqlardan mahrum olanlarla müqayisədə daha professional sayıla bilər.

Normal zəkaya, biliyə malik olan şəxs bədən dilinin analizi üzrə peşəkarlaşa bilər. Bədən dilini düzgün şəkildə müşahidə və təhlil etmək üçün vacib olan on təlimatla sizi tanış edirik. Əgər siz bu təlimatları düzgün şəkildə analiz edib həyata keçirsəniz, bir müddət sonra onlar sizin xüsusi bacarığınıza çevriləcəkdir.

1) Ətraf daim diqqətlə müşahidə edilməlidir.

Müşahidə bədən dilini anlamaq üçün bünövrədir. Əgər həmsöhbət olduğunuz kimisə qulaqlarınızı tıxayıb dinləsəniz, təbii olaraq heç bir məlumat əldə etməyəcəksiniz. Etəca də insanların yalnız danışıq nitqinə əsasən nəticə çıxarmaq, onların bədən dilinə diqqət yetirməmək əldə edəcəyimiz informasiyanın miqdarını 60-62% aşağı salacaqdır. Buna görə də sözlü ifadəmizi anlamaq üçün dinləmək nə qədər əhəmiyyətlidirsə, bədən dilini qavramaq baxımından diqqətli müşahidə eyni dərəcədə vacibdir. Məşhur ingilis detektivi Şerlok Holmsun ortağı Dr. Vatsona dediyi "Görürsən, ancaq müşahidə etmirsən" cümləsi heqiqətdə insanların çoxuna aiddir. Ancaq müşahidə bacarığı öyrənilməsi mümkün olan bir bacarıqdır. Müşahidə bir bacarıq olduğundan, onu düzgün tədrislə və çalışmaqla inkişaf etdirmək mümkündür. Müşahidə etməkdə çətinlik çəkirsinizsə, ümidsizliyə qapılmayın, ətrafınızı daha dərindən şüurlu müşahidə etməyə zaman ayırın. Cəhd edin, öhdəsindən gələcəksiniz. Vacib olan budur ki, müşahidəni həyat tərzinə çevirəsiniz. Əzələ işlədiyi zaman güclənir, işlətmədiyi təqdirdə zəifləyir. Müşahidə əzələlərinizi işlətdiyiniz müddətdə ətrafınızın daxili dünyasını daha fərqli görəcəksiniz.

2) Müşahidə zamanı şəxsin düşdüyü vəziyyəti dərk etmək lazımdır.

Misal üçün, xidmətə daxil olan müddətli hərbi qulluqçuların üç əsas gərginlik və həyəcan keçirdiyi dövr mövcuddur:

1) hərbi formanı geyərək xidmətə ilk daxil olduğu müddət (hərbi and içənə qədər);

2) daimi hərbi hissəyə daxil olduqdan sonra (bir həftə adaptasiya müddətində);

3) daimi bölüyə təyin olunduğu müddətdə (orta müddət bir ay, əsgərin fərdi xüsusiyyətinə görə dəyişə bilir).

Bu dövr ərzində onların gərgin və həyəcanlı olmalarını təbii hesab etmək lazımdır. Ancaq gərginlik və həyəcan göstərilən müddətdən uzun çəkildikdə artıq əsəbləri araşdırılmalıdır.

3) Hamı tərəfindən istifadə edilən (universal) bədən dilinin tanınıb araşdırılması.

Bir çox insanlar bir-birlərinə bənzədikləri üçün bədən hərəkətləri universal ola bilir. Bənzər situasiyalarda insanlar oxşar bədən dili hərəkətləri nümayiş etdirə bilirlər. Misal üçün, insanların çoxunda hər hansı bir sual və ya vəziyyətdə dodaqlarını içəri çəkib bir-birinə sıxaraq görünməyəcək vəziyyətə gətirmək onların həyəcanlı olduğuna, narahatlığına işarədir. Universal davranışları nə qədər yaxşı aydınlaşdırıb izah edə bilsəniz, ətrafınızdakı insanların düşüncə, duyğu və niyyətlərini eyni dərəcədə qiymətləndirməyi bacaracaqsınız.

(davamı gələn sayımızda)

Allah rəhmət eləsin

Daxili Qoşunların şəxsi heyəti 12565 saylı hərbi hissənin hərbi qulluqçusu **leytenant Rəşad Süleymanovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

"2017-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na əsasən aprelin 8-9-da Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində Daxili Qoşunların birinciliyi uğrunda silahsız özünümüdafiə üzrə yarış keçirilib. Yarışda Daxili Qoşunların Ali Hərbi Məktəbindən, 99713, 67987, 16075, 25031 və 16076 saylı hərbi hissələrdən 6 komanda, 42 nəfər hərbi qulluqçu iştirak edib.

Şəxsi birincilik uğrunda keçirilən yarışın nəticələri aşağıdakı kimi olub:

65 kq çəki dərəcəsində

I yer - baş leytenant Şahin Göyüşov (99713 saylı hərbi hissə)
II yer - çavuş Səid Məmmədov (16075 saylı hərbi hissə)
III yer - kiçik çavuş Şahib İsayev (16076 saylı hərbi hissə)

70 kq çəki dərəcəsində

I yer - kiçik çavuş Təbriz Məmmədov (16075 saylı hərbi hissə)
II yer - əsgər Fəxri Sadıqzadə (25031 saylı hərbi hissə)
III yer - baş əsgər Ramid Səfərov (99713 saylı hərbi hissə)

75 kq çəki dərəcəsində

I yer - baş leytenant Alim Məmmədov (99713 saylı hərbi hissə)
II yer - gizir Elçin Güləliyev (16075 saylı hərbi hissə)
III yer - əsgər Elşad Şahbazi (16076 saylı hərbi hissə)

80 kq çəki dərəcəsində

I yer - baş çavuş Elşən Novruzov (16075 saylı hərbi hissə)
II yer - çavuş Ramin Orucov (99713 saylı hərbi hissə)
III yer - kiçik çavuş Şəmistan Ələsgərli (16076 saylı hərbi hissə)

85 kq çəki dərəcəsində

I yer - baş leytenant İlqar Nəcəfli (16075 saylı hərbi hissə)
II yer - leytenant Arzu Məmədov (25031 saylı hərbi hissə)
III yer - çavuş Əhməd Əhmədzadə (67987 saylı hərbi hissə)

90 kq çəki dərəcəsində

I yer - əsgər Müşviq Hüseynov (16075 saylı hərbi hissə)
II yer - leytenant Orxan Seyidov (99713 saylı hərbi hissə)
III yer - baş çavuş Cavad Abışlı (67987 saylı hərbi hissə)

+90 kq çəki dərəcəsində

I yer - çavuş Ülvi Müslümzadə (16075 saylı hərbi hissə)
II yer - baş çavuş Pərviz Rəcəbov (99713 saylı hərbi hissə)
III yer - baş əsgər Ruslan Kübərov (67987 saylı hərbi hissə)

Komanda üzrə nəticələrə gəldikdə, 41 xalla 16075 saylı hərbi hissə birinci, 24 xalla 99713 saylı hərbi hissə ikinci, 6 xalla 25031 saylı hərbi hissə üçüncü yere layiq görülüb.

Mətbuat xidməti

SİLAHSIZ ÖZÜNÜMÜDAFİƏ ÜZRƏ YARIŞIN NƏTİCƏLƏRİ BƏLLİ OLUB

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 07 (498)
15 aprel 2017-ci il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

PREZİDENT İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN İLİN BİRİNCİ RÜBÜNÜN YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN İCLASI KEÇİRİLİB

Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.

Bu ilin birinci rübündə ölkəmizdə iqtisadi inkişafın təmin olunduğunu, sosial məsələlərin həllini tapdığını, ordu quruculuğunun uğurla getdiyini bildirən Prezident İlham Əliyev qeyd etdi ki, 2017-ci il bizim üçün uğurlu il olacaq. Dövlətimizin başçısı beynəlxalq vəziyyətin gərgin olduğunu, münaqişələrin davam etdiyini, yeni risklərin yarandığını təəssüflə qeyd etdi, ölkəmizin təhlükəsizliyini təmin etmək məqsədilə tədbirlər görüldüyünü söylədi.

Bu ilin ilk 3 ayı ərzində xarici ölkələrə 7 dəfə səfər etdiyini vurğulayan və beynəlxalq tədbirlərdəki iştirakından danışan Prezident İlham Əliyev bu səfərlərin böyük əhəmiyyət daşıdığını, Azərbaycanın beynəlxalq imicinin möhkəmləndirilməsi, ikitərəfli əlaqələrin inkişafı baxımından önəmini vurğuladı. 2017-ci ilin ilk 3 ayında Azərbaycana 7 dövlət başçısının səfər etdiyini xatırladan Prezident İlham Əliyev bunu ölkəmizə olan hörmətin göstəricisi kimi qiymətləndirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bu ilin birinci rübündə Bakıda keçirilən və 40-dan çox fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçısının iştirak etdiyi V Qlobal Forum, ABŞ və Rusiya silahlı qüvvələrinin qərargah rəislərinin görüşü Azərbaycanın dünyadakı rolunu, dünya miqyasında etibarlı tərəfdaş olduğunu əks etdirir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin cari ilin birinci rübündə də diqqət mərkəzində olduğunu, Ermənistanın danışıqları dayandırmağa çalışdığını, amma buna nail ola bilməyəcəyini deyən Prezident İlham Əliyev bildirdi ki, Minsk qrupunun həmsədr ölkələri bir neçə dəfə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir. Dövlətimizin başçısı vurğuladı ki, ATƏT-in Minsk qrupu Ermənistana təzyiqi daha da gücləndirmelidir. BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı dörd qətnamə qəbul etdiyini diqqətə çatdıran Prezident İlham Əliyev bildirdi ki, bu qətnamələr qeyd-şərtsiz icra olunmalı və işğalçı qüvvələr işğal olunmuş ərazilərdən çıxarılmalıdır.

Azərbaycanın gündən-günə güclənməsini və gec-tez bu məsələnin ədalətli həll olunacağına əminliyini bildirən Prezident İlham Əliyev Dağlıq Qarabağda keçirilən qondarma "referendum"u qeyd etdi, bu "referendum"u keçirməklə Ermənistanın bir daha özünü biabır etdiyini vurğuladı. "Dərhal qonşu ölkələr, Minsk qrupuna həmsədr olan ölkələr, Avropa İttifaqı və bir çox digər ölkələr bu "referendum"u pislədilər və tanımadıqlarını dedilər. Bütün beynəlxalq aləm "referendum"u qəbul etməməklə Azərbaycanın ərazi bütövlüyünə öz dəstəyini göstərmiş oldu", - deyən dövlətimizin başçısı məsələ ilə bağlı ölkəmizin digər uğurunun Dağlıq Qarabağa qanunsuz səfər etmiş, xaricdə saxlanılan əcnəbi vətəndaşın bütün dünyanın gözü qarşısında Azərbaycana təhvil verilməsinin olduğunu qeyd etdi. Prezident İlham Əliyev əminliklə bildirdi ki, bu, həm bizim qanunlarımızı kobudcasına pozan şəxsə, həm də onun kimilərinə dərs oldu.

Cocuq Mərcanlı kəndinin bərpasını da tarixi hadisə adlandıran dövlətimizin başçısı bu gün orada yeni qəsəbənin salındığını, ilkin mərhələdə 50 evin tikildiyini, yeni yolun salındığını, məscidin inşa olunduğunu, sonrakı mərhələdə daha 150 evin tikintisinin nəzərdə tutulduğunu qeyd etdi. Vurğuladı ki, bu, bir daha Azərbaycan xalqının heç vaxt işğallа barışmayacağını, ərazi bütövlüyünü bərpa etdikdən sonra bütün şəhər və kəndləri yenidən quracağını nümayiş etdirir. Bununla yanaşı, bu, bir daha göstərir ki, 20 ildən çoxdur doğma yurdlarından didərgin düşmüş insanlar öz evlərinə qayıtmaq arzusu ilə yaşayırlar.

İqtisadiyyatımızın əsas göstəricilərinə nəzər salan Prezident İlham Əliyev ilin ilk 3 ayı ərzində qeyri-neft sektorunun 2,4 faiz artdığını, qeyri-neft sənayesində artımın 2 faiz səviyyəsində olduğunu, kənd təsərrüfatının 3,5 faiz artdığını, bitkiçiliyin 20 faizdən çox artdığını bildirdi. Birinci rübdə valyuta ehtiyatlarımızın 1 milyard dollar səviyyəsində artdığını və bu gün valyuta ehtiyat-larımızın 38,5 milyard dollar təşkil etdiyini deyən dövlətimizin başçısı bunu önəmli məsələ adlandırdı. Bu ilin 3 ayı ərzində ticarət dövriyyəsi 15 faiz, ixrac təminən 50 faiz, qeyri-neft ixracımız təminən 10 faiz artıb, idxal isə 17 faiz azalıb. İdxalın azalması, ixracın kəskin artması iqtisadi səbitliyimizi təmin edir. Ticarət dövriyyəmizin müsbət saldosu 1 milyard dollar səviyyəsindədir.

Bu il Cənub Qaz Dəhlizi ilə bağlı önəmli hadisə kimi Bakıda artıq üçüncü dəfə keçirilən Məşvərət Şurasının iclasını qeyd edən Prezident İlham Əliyev bildirdi ki, bu iclasın yekunu olaraq ölkəmizin liderlik rolunun qeyd edildiyi qətnamə qəbul olunub. Bildirdi ki, Cənub Qaz Dəhlizinin tezliklə istifadəyə verilməsi həm bizim, həm layihədə iştirak edən, həm də gələcəkdə bu layihədən xeyir götürəcək ölkələr üçün önəmlidir.

Dövlətimizin başçısı bu ilin birinci rübündə turistlərin ölkəmizə səfərində 25 faiz artımın olduğunu qeyd edərək, bunu Azərbaycanda mövcud olan sabitlik, yara-dılan müasir infrastruktur, ölkəmizdəki 6 hava limanı, gözəl yolların, otellərin inşası, müalicəvi turizmin inkişafı ilə əlaqələndirdi. Bildirdi ki, 3 ay ərzində "ASAN viza"sı xətti ilə 40 min viza verilib. Səksəndən çox ölkə vətəndaşı elektron vizalar alır. Bu gün Bakının dünyanın ən gözəl şəhərlərindən biri olduğunu deyən Prezident İlham Əliyev gələn ay ölkəmizdə IV İslam Həmrəyliyi Oyunlarının keçiriləcəyini dedi və bunun böyük idman bayramı olacağını vurğuladı.

Sonra müdafiə sənayesi naziri Yavər Camalov, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov, "Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev çıxış etdilər.

İclasa yekun vuran Prezident İlham Əliyev 2017-ci ilin ilk aylarının yaxşı nəticələrlə yekunlaşdığını bildirdi. Makroiqtisadi səbitliyin möhkəmləndirilməsini önəmli məsələlərdən biri adlandıran Prezident İlham Əliyev vurğuladı ki, süni qiymət artımına yol verilməməlidir. Dövlət büdcəsinin icrasının uğurla getdiyini, builki investisiya proqramının tam şəkildə icra edilməsinin vacibliyini, ölkə üçün ən lazımlı layihələrə vəsaitin ayrıldığını, maliyyə vəziyyətimizin yaxşı olduğunu bildirən dövlətimizin başçısı valyuta ehtiyatlarımızın xarici borcumuzdan 5 dəfə-dən çox olduğunu söylədi və bunu yaxşı nəticə adlandırdı. Diqqətə çatdırdı ki, bu il inşaat sektorunda canlanma müşahidə edilir. Bu isə ötən il görülən işlərin, qəbul edilən qərarların nəticəsidir. Bakıda 300-dən çox yeni hündürmərtəbəli bina tikilir və minlərlə yeni iş yeri yaradılır.

Bölgələrdə məşğulluğun artırılmasına daim diqqətdə saxlanılmasının vacibliyini bildirən dövlətimizin başçısı sahibkarlığın inkişafı ilə bağlı güzəştli kreditlərin verilməsi prosesinin davam edəcəyini diqqətə çatdırdı. Qeyd etdi ki, xarici sərmayələrin cəlb edilməsi ilə bağlı daha fəal iş aparılmalıdır. Bu il Quba və Mingəçevirdə "ASAN xidmət" mərkəzlərinin açılacağını deyən Prezident İlham Əliyev Şəki və İmişlidə də belə mərkəzlərin binalarının tikintisinin aparıldığını diqqətə çatdırdı.

Sonda dövlətimizin başçısı bu ilin sonuna qədər müsbət dinamikanın saxlanılmasının vacibliyini vurğuladı.

DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ-DAXİLİ QOŞUNLARIN KOMANDANI ƏSGƏR VALİDEYNLƏRİ İLƏ GÖRÜŞÜB

Əsgər valideynləri övladları üçün yaradılmış hərtərəfli şəraitə görə Respublika Prezidentinə dərin minnətdarlıqlarını bildiriblər

Aprelin 9-da Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində əsgər valideynləri ilə görüşü keçirilib.

Görüşə gələn əsgər valideynlərinin bir neçəsini qəbul edən Daxili Qoşunların Komandanı onların müraciətlərini dinləyib.

Görüşün təşkil olunmasında əsas məqsədin valideynlərin müraciət və təkliflərinin dinlənilməsi olduğunu vurğulayan cənab komandan qeyd edib ki, Daxili Qoşunların bütün hərbi hissələrində əsgərlərin yüksək səviyyədə xidmət aparması üçün hərtərəfli şərait yaradılıb. Diqqətə çatdırılıb ki, ümumiyyətlə, Daxili Qoşunların hərbi qulluqçularının sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə hərtərəfli şəraitə malik yaşayış kompleksləri, yeni hərbi şəhərciklər, qərargah binaları, əsgər kazarmaları, yeməkxanalar, tibb məntəqələri ən müasir zəruri avadanlıqlarla təchiz edilib.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı bildirib ki, bütün bunlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin şəxsi heyətə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Görüş zamanı valideynlərin övladlarının xidmət keçməsi ilə bağlı verdikləri suallar da cavablandırılıb.

Əsgərlərin sosial-məişət şəraiti ilə yaxından tanış olmalarına şəraitin yaradılmasından məmnunluqlarını ifadə edən valideynlər övladları üçün yaradılmış hərtərəfli şəraitə görə Respublika Prezidentinə, həmçinin Daxili İşlər Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

Görüşdən sonra Daxili Qoşunların Komandanı əsgər valideynlərinin qaldırdığı məsələlərin həll olunması ilə əlaqədar konkret göstəriş və tapşırıqlar verib. Bir sıra məsələlər yerindəcə həllini tapıb.

Mətbuat xidməti

DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİNDƏ XARİCİ DÖVLƏTLƏRİN HƏRBİ ATTAŞELƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB

Aprelin 5-də Daxili Qoşunların Ali Hərbi Məktəbində Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşələri ilə görüş keçirilib. Görüşdə 14 ölkənin - Amerika Birləşmiş Ştatları, Rusiya Federasiyası, İsveçrə Konfederasiyası, Türkiyə, İran İslam Respublikasının, Cənubi Koreya, Çexiya, Qazaxıstan, Rumıniya, Ukrayna, Pakistan, Belarus, Bolqarıstan, Gürcüstanın hərbi attaşələri və digər səlahiyyətli nümayəndələri iştirak ediblər.

Ümumilikdə, 19 nəfər xarici qonağın təmsil olunduğu görüşün keçirilməsində əsas məqsəd Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbi ilə yaxından tanışlıqdır.

(davamı 2-ci səhifədə)

DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİNDƏ XARİCİ DÖVLƏTLƏRİN HƏRBİ ATTAŞELƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB

(əvvəli 1-ci səhifədə)

Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədov qonaqları səmimi salamlayaraq, onları Daxili Qoşunların Ali Hərbi Məktəbində qəbul etməkdən məmnunluq hissi duyduğunu bildirib. Daxili Qoşunların beynəlxalq hərbi əməkdaşlıq əlaqələrinin günü-gündən inkişaf etdiyini diqqətə çatdıran Ali Hərbi Məktəbin rəisi keçirilən görüşün buna bariz nümunə olduğunu söyləyib.

Qeyd edilib ki, xüsusilə dövlət müstəqilliyi qazanıldıqdan sonra ölkəmizdə ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların formalaşmasına, onun ən müasir tələblərə cavab verən silahlı birləşməyə çev-rilməsinə, şəxsi heyətin peşəkarlığının yüksəldilməsinə və maddi-texniki təchizatının daha da yaxşılaşdırılmasına xüsusi önəm verilir.

Görüşdə Daxili Qoşunların yaranma tarixi, strukturu, normativ-hüquqi bazası, təlim-tədrisin, təchizatın vəziyyəti və beynəlxalq əlaqələri barədə, eləcə də Ali Hərbi Məktəbin təlim-tədris sistemini əks etdirən geniş məzmunlu brifinq verilib.

Rumıniyanın hərbi attaşəsi, heyətin rəhbəri polkovnik Rodin Lazarou səmimi və qonaqpərvər qəbula görə heyət adından təşəkkürünü bildirib.

Heyət rəhbəri polkovnik R.Lazarou şərəf kitabını imzaladıqdan sonra xatirə şəkli çəkilib.

Tədbirin sonunda xarici qonaqlar Ali Hərbi Məktəbdə tədris korpuslarına, kursant yataqxanasına baş çəkib, yaradılmış şəraitlə tanış olublar.

baş leytenant X.Hacızadə

12565 SAYLI HƏRBİ HİSSƏNİN YARADILMASININ 22-ci İLİ TAMAM OLUB

İldönümü münasibətilə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının şəxsi heyətə ünvanladığı təbrik məktubu oxunub

Aprelin 10-da Daxili Qoşunların 12565 saylı hərbi hissəsi yaradılmasının 22-ci ildönümünü qeyd edib. Bu münasibətlə hərbi hissədə tantənəli mərasim keçirilib.

Əvvəlcə hissə komandanlığı və şəxsi heyət Naxçıvan şəhərində yerləşən Şahidlər Xiyabanını ziyarət ediblər.

Sonra tədbirin rəsmi hissəsi hərbi hissədə davam etdirilib. Milli Lider Heydər Əliyevin və torpaqlarımızın müdafiəsi uğrunda qəhrəmancasına şahid olan hərbi qulluqçularımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Hərbi hissə komandiri polkovnik İlkin Əsədov çıxış edərək hərbi hissənin yaradılma tarixi, keçdiyi rəşadətli döyüş yolu, qəhrəmanları, həmçinin, 22 il ərzində əldə olunmuş nailiyyətlər barədə ətraflı məlumat verib.

Daha sonra hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Şahin Bəylərov ildönümü münasibətilə Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun şəxsi heyətə ünvanladığı təbrik məktubunu çatdırıb.

Məktubda hərbi hissənin qrupunda qəhrəmancasına şahid olan hərbi qulluqçularımızın üzərinə ictimai asayişin təmin olunması, vətəndaşların konstitusiya hüquqlarının və əmin - amanlığının qorunması kimi böyük və məsuliyyətli vəzifələr qoyulduğu, şəxsi heyətin bu vəzifələrin öhdəsindən layiqincə gəldiyi qeyd olunub. Hərbi hissənin şəxsi heyətinin Daxili Qoşunların daha da inkişaf etməsi və müasir standartlara cavab verən qoşun növünə çevrilməsi naminə fədakar əməyini esirgəmədiyi vurğulanıb.

Həmçinin son vaxtlar hərbi hissədə aparılan quruculuq işləri nəticəsində tədris bazasının möhkəmləndirildiyi, hərbi qulluqçuların peşə hazırlığının təkmilləşdirilməsi, sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində çoxsahəli işlərin görüldüyü bildirilib.

Təbrikdə Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq qa - laraq, Vətən, dövlət və xalq qarşısında öz şərəfli borcunu layiqincə yerinə yetirən şəxsi heyətin bundan sonra da Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cə - nab İlham Əliyevin göstərdiyi etimadı doğruldacağına, qoşunların qəhrəmanlıqənənələrini davam etdirəcəyinə əminlik ifadə olunub.

Mərasimdə vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan, şəxsi nümunə, yüksək hərbi intizam nümayiş etdirərək fərqlənən bir qrup hərbi qulluqçuya mükafatlar təqdim edilib.

Tədbir Naxçıvan Dövlət Filarmoniyasının incəsənət ustalarının bayram konserti ilə davam etdirilib.

Həmin gün hərbi hissənin yaranma günü münasibətilə bölmələr arasında mini futbol yarışı keçirilib.

Mətbuat xidməti

16076 SAYLI HƏRBİ HİSSƏ XİDMƏTİ FƏALİYYƏTİNİ UĞURLA HƏYATA KEÇİRİR

Daxili İşlər Nazirliyinin, Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin və Respublika Baş Prokurorluğunun inzibati binalarının mühafizəsini təşkil edən 16076 saylı hərbi hissə gündəlik xidməti fəaliyyətini uğurla həyata keçirir. Cari ilin I rübündə hissənin əldə etdiyi nailiyyətlər bunu deməyə əsas verir.

Hərbi hissə komandiri polkovnik-leytenant Tural Novruzov hissənin gündəlik xidmət-əbliyə fəaliyyəti barədə məlumat verərkən bildirdi ki, səhər yerbəyer mərasimi zamanı bölmələrə aidiyyəti üzrə tapşırıqlar verilir. Məsələn, sırada olan mühafizə bölüyü ilə həftəlik məşğələ cədvəlinə uyğun olaraq, həm nəzəri, həm də praktiki təlimlər keçirilir. Komendant taqımı hissənin nəzarət-buraxılış məntəqəsi üzrə xidmətə cəlb olunur. Təminat bölüyünün avtomobil taqımı qarovulların daşınması üçün nəzərdə tutulan nəqliyyat vasitələrinin sazlığına nəzarət edir, eləcə də avtomobil parkında sutkalıq xidməti yerinə yetirir. Təminat taqımı isə yeməklərin hazırlanmasına, həmçinin hissənin digər təminat işlərinə cəlb olunur. Hərbi hissədə fasiləsiz rabitənin təşkili üçün rabitə növbətçisi və növbətçi-siqnalçı xidmətini rabitə taqımı həyata keçirir. Ümumiyyətlə, hər bir taqım fəaliyyətini funksional vəzifələrinə uyğun qurur.

Polkovnik-leytenant T.Novruzov hərbi hissənin gün mühafizə xidmətinə cəlb olunan bölmə haqqında da danışdı. Qeyd etdi ki, bölmə ilə 1 saat məşğələ keçirilir. Məşğələ bitdikdən sonra xidmətə hazırlaşmaq üçün saat 10:00-dan 11:00-dək bölmələr vaxt verilir. Bu müddət ərzində şəxsi heyətin yuyunması, gigiyenik tələbatlarının ödənilməsi, geyim formasının qaydaya salınması təmin olunur. Eyni zamanda, tərbiyə bölməsində təlimatçı-psixoloq tərəfindən şəxsi heyətin mənəvi-psixoloji durumunun öyrənilməsi məqsədilə söhbətlər aparılır. Mənəvi-psixoloji durumu qənaətbəxş hesab olunmayan hərbi qulluqçu xidmətdən kənarlaşdırılır. Hazırlıq prosesləri tamamlandıqdan sonra şəxsi heyət istirahət edir. Nahar yeməyinin ardınca hərbi qulluqçular tibbi müayinədən keçirilir. Səhhətində hər hansı bir problem aşkar edildikdə digər hərbi qulluqçu ilə əvəzlənir. Müayinədən keçən şəxsi heyət silahlanır və təlimat məşğələsinə hazırlaşır. Təlimat məşğələləri 45 dəqiqə müddətində bölmə komandiri tərəfindən yekun vurulur və xidmət zamanı fəaliyyətləri ilə seçilən əsgərlər müka-fatlandırılır.

Bir sözlə, hər bir bölmə gündəlik fəaliyyətini hərbi nizamnamələrin, rəhbər sənədlərin əsasında qurur və qarşıya qoyulan bütün tapşırıqları müvəffəqiyyətlə icra edir.

baş leytenant T.Əlizadə

ÇAĞIRIŞÇILARIN QƏBULU UĞURLA DAVAM ETDİRİLMƏKDƏDİR

Həyata keçirilən tədbirlər çağırışçıların Vətənə layiqli, əsl vətənpərvər hərbi qulluqçu kimi formalaşmasında mühüm rol oynayacaq

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən, aprel ayının 1-dən etibarən 18 yaşı tamam olmuş Azərbaycan Respublikasının vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışına başlanılıb. Bu proses Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında da davam etdirilməkdədir. Bu məqsədlə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" müvafiq əmrinə əsasən çağırışçıların tibbi müayinəsinin aparılması və mənəvi-psixoloji durumunun qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb.





Qrupun fəaliyyəti və görülən digər işlər barədə ətraflı məlumat almaq məqsədilə qoşunların 25031 saylı hərbi hissəsində oldum.

Hərbi hissəyə ilk gəlişində seçim qrupunun üzvləri - 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsi komandirinin tərbiyə işləri üzrə müavini mayor Arzu İmanov və 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsi komandirinin tərbiyə işləri üzrə müavini kapitan Xəqani Mikayılov çağırışçılarla söhbət edir, onların demoqrafik məlumatlarını, məşğuliyyətlərini, ailə vəziyyətlərini, yaxın qohumlarının məhkumluğunun olub-olmamasını dəqiqləşdirir, onların hərbi xidmətə münasibətləri barədə söhbət aparırdılar. Mayor A.İmanov qeyd etdi ki, bu məlumatlar toplandıqdan sonra hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanır. Daha sonra çağırışçılar növbə ilə həkim-stomatoloq tibb xidməti kapitanı Mehparə Qurbanova, həkim ekspert-psixonevroloq tibb xidməti baş leytenantı Orxanə Cəfərova və ordinator-oftalmoloq tibb xidməti leytenantı Svetlana Başirova tərəfindən müayinə olunurlar, baş leytenant Eldəniz Qurbanov tərəfindən onlara bədən baxışı keçirilir. Bundan başqa, çağırışçılar flüoroqafik müayinədən keçirilir. Çağırışçıların əşya əmlakları ilə təmin olunmaları da diqqətdə saxlanılır. Belə ki, onlar hissənin təminat bölüyündə əşya anbarı rəisi gizir Şahin Məmmədov tərəfindən bədən ölçülərinə uyğun olan geyimlərlə təmin olunurlar.

Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra onlarla hərbi hissədə hissə komandanlığı, bölük və taqım komandirləri tərəfindən fərdi söhbətlər aparılır, hərbi xidmətə adaptasiya olunmaları üçün müvafiq məsləhətlər verilir.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Ramin Məmmədov qəbul prosesi haqqında danışarkən bildirdi ki, çağırışçılar hərbi hissəyə qəbul olunan zaman qəbul komissiyasında onlarla bölüklərdə söhbətlər aparılır, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durmun yüksəldilməsi üçün Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında məlumat verilir.

O, çağırışçılarının hərbi xidmətə adaptasiya olunmaları və mənəvi-psixoloji durumun yüksəldilməsində psixoloq baş leytenant Cəmilə Ələkbərovanın rolunu xüsusilə vurğuladı. Qeyd etdi ki, çağırışçılarla ilk gündən başlayaraq fərdi söhbətlər aparılır, xüsusi diqqət tələb edənlər nəzarətə götürülür və bu barədə hərbi hissə komandirinə məlumat verilir. Onlarda ruh yüksəkliyi yaratmaq üçün hər bir tərbiyəçi-zabit tabeliyində olanlara qarşı yüksək tələbkarlıq göstərməklə yanaşı, onlara xüsusi qayğı ilə yanaşır.

Bundan əlavə, hər həftənin şənbə günləri çağırışçıların Daxili Qoşunların muzeyinə gəzintiləri təşkil olunur. Həmçinin, mütəmadi olaraq Daxili Qoşunların Veteranlar Şurasının üzvləri bölüklərdə əsgərlərlə görüşür, onlarla söhbətlər aparırlar.

İstər veteranlarla görüşlərdə, istərsə də muzeydə onlara Daxili Qoşunların yaranma tarixi, qəhrəmanlıq nümunələri, həmçinin Silahlı Qüvvələrin Ali Baş Komandanı, Respublika Prezidenti cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi diqqət və qayğı barədə ətraflı məlumatlar verilir, hərbi xidmətin xüsusiyyətləri izah edilir, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslər aşılanır.

45 gündük təlim dövründə isə ictimaisiyasi, sıra, fiziki və atəş hazırlığı məşğələləri keçirilir. Daxili Qoşunların təyinatı və vəzifələri, istifadədə olan silahların taktiki-texniki xüsusiyyətləri, nişanalma və təhlükəsizlik qaydaları, hərbi qulluqçular arasında qarşılıqlı münasibətləri özündə əks etdirən müvafiq nizamnamələrin tələbləri ilə bərabər, hərbi qanunvericilik aktlarının müddəaları da əsgərlərə öyrədilir. Sonuncu həftədə isə praktiki atışlar yerinə yetirilir və hər bir əsgər fərdi qaydada qiymətləndirilir.

Bütün bunlar deməyə əsas verir ki, hərbi hissədə həyata keçirilən tədbirlər çağırışçıların Vətənə layiqli, əsl vətənpərvər hərbi qulluqçu kimi formalaşmasında mühüm rol oynayacaq.

baş leytenant X.Hacızadə

Şəhidlərimiz

VƏTƏNƏ OĞUL GƏRƏKDİR...

XX əsrin sonlarında - Ermənistanın müqəddəs torpaqlarımıza qarşı ərazi iddiaları yenicə başlayanda digər həmsərhəd bölgələrimiz kimi Naxçıvan Muxtar Respublikasının əraziləri də vəhşi erməni daşnaklarının hücumuna məruz qalmışdı. Təkcə bu yurdun ən ucqar yaşayış məntəqəsi olan Sədərək, 1990-cı il iyunvarın 18-dən 1993-cü il avqustun 13-dək 14 dəfə xain ermənilərin güclü hücumuna məruz qalmasına baxmayaraq, düşmən qabağında mərdanə dayanmış və bir qarış da geri çəkilməmişdi. Mahz buna görə də Milli Liderimiz Heydər Əliyev 1992-ci ildəki çıxışlarından birində Sədərəyi "Qeyrət Qalası" adlandırıb. Vətənimizin belə ağır günlərində Naxçıvanın igid oğulları silaha sarılaraq, nəinki öz yaşadıqları bölgənin, o cümlədən digər ərazilərimizin də erməni calladlarından müdafiə olunması üçün döyüşə atılıb. Bu müqəddəs amal uğrunda Naxçıvanın yüzlərlə cəsur övladı şəhid və əlil olub.

HÜSEYNOV AFƏT İMRAN OĞLU

Bu elin Vətən yolunda canını qurban verərək şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman övladlarından biri - əsgər Hüseynov Afət İmran oğlu mahz Daxili Qoşunların cəsur hərbi qulluqçusu idi.

Əsgər Afət Hüseynov 1974-cü il iyun ayının 10-da Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ağbulaq kəndində dünyaya göz açıb. Atası İmran kişinin və Nübar ananın halal zəhmətlə böyüdüb tərbiyə etdiyi 11 övladdan (Şeringül, Təzəgül, İsmayıl, Tahirə, Rəfiq, Validə, Cəbrayıl, Afət, Elşad, Mina və Habil) biri, eyni zamanda ailənin səkkizinci övladı idi Afət.

İgid silahdaşımızın yaxın qohumu, xalası oğlu Rizvan Bayramov onu deyibgülən, zarafatcıl, eyni zamanda da bacarıqlı və qoçaq insan kimi xatırladığını deyir: *"Afətin uşaqlığı gözlərim önündə keçib. Ailənin səkkizinci uşağı idi. Anadan olanda xalam onun uzun kipriklərinə, qapqara gözlərinə və qaşlarına baxıb deyərdi: "Allah balamı bədnəzərdən saxlasın". Amma hardan bilaydi ki, gün gələcək, qolları üstündə yatırdığı bu körpə öz canını Vətənə qurban verəcək və bir nəslin, bir elin, bir məmləkətin iftixarına çevriləcək...*

Afət bəstəboy, arıq bir uşaq idi. Amma buna rağmən daxilində qaynar bir enerji var idi. Bir yerdə qərar tutan deyildi. Deyib-gülməyi sevən, hazırcavab uşaq idi. Adi məqamlarda elə söz deyərdi ki, yaşından asılı olmayaraq hamını güldürərdi. Çəkisi az olduğuna görə bir neçə çağırış onu hərbi xidmətə aparmadılar. Növbəti çağırışların birində o, hərbi komissarlığa getdi. Evə gələndə sevinə-sevinə dedi ki, bu dəfə onu hərbi xidmətə göndərəcəklər. Hərbi xidmətə yollananda da nikbinliyini saxlayıb, ata-anasını güldürməyə çalışırdı...".

Beləliklə, Şahbuz Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan gənc Afət Daxili Qoşunların Bakı şəhər, Nərimanov rayonunda yerləşən "N" saylı hərbi hissəsində əsgər kimi Vətənə olan müqəddəs borcunu şərəflə yerinə yetirməyə başlayır. Burada bir müddət təlim keçdikdən sonra, könüllü olaraq Daxili Qoşunların döyüş bölgəsində yerləşən hərbi hissələrindən birində xidmətini davam etdirir.

Qohumu R.Bayramov Afətin cəbhə bölgəsinə getməzdən öncə onunla sonuncu görüşünü iftixar hissi ilə xatırlayaraq, bu anı heç zaman unutmayacağını bildirdi: *"1992-ci ilin dekabr ayında müayinə olunmaq üçün Bakıya gəlmişdim. Fürsətdən istifadə edib xalam oğlunu görməyə getdim. Hərbi hissənin girişində nəzarət-buraxılış məntəqəsinə yaxınlaşdım. Növbədə olan əsgər və çavuşa rayondan gəldiyimi, Afəti görmək istədiyimi bildirərək, onu çağırmalarını xahiş etdim. Bir azdan Afət gəldi. O deyib gülən, zarafatcıl Afətin çöhrəsi bulud kimi tutulmuşdu. Ordan-burdan danışdıq, evdəkiləri xəbər aldı. Xidmətin necə keçdiyini soruşanda ürəyindəkini dilə gətirdi: "Xalaoğlu, raport yazmışam, Qarabağa gedəcəm". Doğrusu, mən bir qədər təşvişə düşdüm və dedim: "Sən nə danışırsan? Cəbhəni oyuncaq bilmə, oradakı çətinliyə dözəcək canın da yoxdur".*

Onun o zamankı cavabı elə kəskin və yerində oldu ki, əlavə söz demək iqtidarında olmadım. "Xalaoğlu, məni yanyana bir oğlan var idi, Ağdamdan. Dünən şəhid olub. Özümə gələ bilmirəm, ondan artıq oğlan deyiləm. Bir də ki, de görüm hansı birimiz torpağın ermənidə qalmağına razı ola bilərik? Sabah lazım gəlsə, o biri qardaşlarım da, lap atam da getməlidir. Məni dilə tutmağa çalışma. Getməsəm, birtəhər əsgərliyi başa vursam, kəndə qayıtmağa üzüm olmaz. Cəbhəyə getmək elə şəhid olmaq deyil ki. Allah qoysa, sağ-salamat gələcəm, görüşəcəyik".

Sağollaşıb ayrıldıq. Amma bu balaca bədəndə olan o böyük ruh məni heyrətləndirmişdi. Afət gözdən itənədək yerimdən tərpənmədən onun arxasınca baxdım. Bu bizim sonuncu görüşümüz oldu".

16 mart 1993-cü il. Ağdərə rayonunun yaşayış məntəqələri və yüksəklikləri uğrunda qanlı döyüşlər gedirdi. Təpədən-dırnağadək silahlanmış düşmən qüvvələri möv - qelərimiz üzərinə hücum edərək, nəyin bahasına olursa-olsun, işğalçılıq planlarını həyata keçirməyə cəhd edirdilər. Lakin Afət kimi cəsur döyüşçülərimizin qəhrəmanlığı sayəsində hər dəfə burnu ovulan daşnaklar geri çəkilmək məcburiyyətində qalırdılar. Lakin belə qanlı döyüşlərin birində - Canyataq və Gülyataq kəndləri ətrafında döyüşlər zamanı düşmənin atdığı mərminin partlaması nəticəsində ağır yaralanan qəhrəmanımız 3 gün sonra - martın 19-da göz - lərini əbədi yumaraq şəhidlik zirvəsinə yüksəlir...

Daxili Qoşunların veteranı, o dövrdə mayor hərbi rütbəsində Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının şəxsi heyət üzrə müavini vəzifəsində xidmət edən (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbinin müəllimi, ehtiyatda olan polkovnik-leytenant) Səfxan Bayramov, cəsur əsgəri haqqında xatirələrini bizimlə bölüşərkən bunları dedi: *"Afəti hələ Daxili Qoşunların Nərimanov rayonundakı "N" saylı hərbi hissəsində xidmət etdiyi vaxtlardan çox yaxşı tanıyırdım. Olduqca iradəli, yüksək nizam-intizamlı, eyni zamanda Vətənini sevən əsl döyüşçü idi. Məhz buna görə də hərbi hissənin komandir heyəti və hərbçi yoldaşları arasında dərin hörmət və nüfuzu vardı...*

Döyüş bölgəsinə də özü könüllü olaraq yollanmışdı. Ağdərə bölgəsində olarkən, döyüş öncəsi Afətin çiynində qumbaraatan silahla əsgər yoldaşları ilə birgə nizami sıra duruşunda ön sırada dayanması hələ də gözlərimin önündədir. Lakin 1993-cü ilin mart ayının ortalarında Ağdərənin Canyataq-Gülyataq kəndləri ətrafında gedən döyüşdə Afət şəhidlik zirvəsinə ucaldı".

Vətən uğrunda canını qurban verən əsgər Afət Hüseynov Naxçıvan şəhərində Şəhidlər Xiyabanında dəfn olunub. Subay idi.

Vaxtilə təhsil aldığı Şahbuz rayonu, Ağbulaq kənd tam orta məktəbinə onun adı verilib.

Afət Hüseynov adına Ağbulaq kənd orta məktəbi (Naxçıvan MR Şahbuz r.)

Şəhid A.Hüseynovun həyat və döyüş yolundan bəhs edən məlumatlara Bəsti Əliyevanın "Əsgər" qəzetinin 1996-cı il iyul tarixli, 6 nömrəli sayında "Vətən naminə" başlıqlı məqaləsində (Məqalə Daxili Qoşun - ların Mətbuat xidmətinin sabiq rəisi, ehtiyatda olan polkovnik-leytenant T.Məmmədovanın 1999-cu ildə Bakıda nəşr olunan "Ögullar verir ki can, yaşasın Azərbaycan" adlı kitabında da dərc edilib – A.Ə.), həmçinin Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet səhifəsində rast gəlmək olar.

Bundan əlavə, A.Hüseynovun adı Daxili Qoşunların Arxivində saxlanılan Daxili Qoşunlar üzrə "1992-1994-cü illərdə gedən döyüş əməliyyatları nəticəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı"nda 471-ci sıra nömrəsi ilə qeydə alınmışdır.

Afət kimi igid silahdaşlarımız Daxili Qoşunların tərkibində xidmətlərini bu gün də şərəf və ləyaqətlə davam etdirirlər. Bu oğullar işğal altında olan yurd yerlərimizi düşmən tapdağından azad etməyə hər zaman hazırdırlar...

Allah şəhidlərimizə rəhmət eləsin!

kapitan A.Əhmədov
Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri

70 YAŞIN UCALIĞI...

Aprelin 8-də 25031 saylı hərbi hissədə Daxili Qoşunların Veteranlar Şurası sədrinin müavini, ehtiyatda olan polkovnik-leytenant Telman Aslanovun 70 illik yubileyi münasibətilə tədbir keçirilib. Tədbirdə Daxili Qoşunların Baş İdarəsinin və hərbi hissələrinin zabit və gizirləri, veteranlar, hərbi xidmətə yeni çağırılan əsgərlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Daxili Qoşunların Veteranlar Şurasının üzvü, döyüşçü-şair Elxan Xəzər T.Aslanovun 30 ildən artıq hərbi xidməti dövründə böyük nüfuz qazandığını, bu gün veteranlar arasında bir ağsaqqal kimi dərin hörmətə malik olduğunu vurğulayıb.

Sonra Daxili Qoşunların Veteranlar Şurasının katibi Yalçın Abbasov T.Aslanovun həyat və fəaliyyəti mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi yubilyarın bu günədək zəngin və mərarəqlı ömür yolu kəqdiyini, Daxili Qoşunların sıralarında fədakarcasına xidmət etdiyini bildirib. T.Aslanov sovet və müstəqillik dövründə hərbi xidmətdə olub, zabit olaraq peşəkarlıq zirvəsinə ucalıb. O, Daxili Qoşunların formalaşmasında öz əməyini əsirgəməyib.

Y.Abbasov qeyd edib ki, T.Aslanov müharibə və Silahlı Qüvvələr veteranıdır. O, veteran olaraq ictimai fəaliyyətində də fəaldır. Gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsi işində yorulmadan çalışır. Daxili Qoşunların Veteranlar Şurası yaradıldıqdı vaxtdan bu günədək sədr müavini vəzifəsində uğurla fəaliyyət göstərən T.Aslanov veteranların təşkilatlanması və həmrəyliyinin möhkəmləndirilməsinə layiqli töhfələr verib.

Maruzaçı T.Aslanovun övladlarının da hərbçi olduğunu nəzərə çatdıraraq, bu faktı cəmiyyətimiz üçün bir örnək adlandırıb. O, veteranın yubileyinin yüksək səviyyədə keçirilməsinin Daxili Qoşunların komandanlığının veteranlara diqqət və qayğısının təzahürü olduğunu bildirib.

Daxili Qoşunların Baş İdarəsində Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun yubileyara təbrik məktubunu oxuyub.

Daxili Qoşunların Veteranlar Şurasının sədri, ehtiyatda olan polkovnik-leytenant Murad Mürsəlov öz çıxışında T.Aslanovu veteranlar adından təbrik edib.

T.Aslanov Respublika Veteranlar Təşkilatının "Veteran həmrəyliyi" medalı ilə təltif olunub. Medalı veterana təqdim edən təşkilatın komissiya sədri Camal Qəhrəmanov ona ictimai fəaliyyətində uğurlar arzulayıb.

25031 saylı hərbi hissənin komandiri polkovnik Salamat Cəfərov öz çıxışında yubilyara ürək sözlərini bildirib. Hərbi hissə adından veterana fərman təqdim olunub.

Daxili Qoşunların Ali Hərbi Məktəbi kollektivinin təbrikini T.Aslanova çatdıran polkovnik-leytenant Vyaçeslav Staritskiy Ali Hərbi Məktəb rəisinin imzaladığı fərmanı yubilyara təqdim edib.

E.Xəzər Sabunçu Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının təbrik məktubunu oxuyub.

T.Aslanovu 70 illik yubileyi münasibətilə ictimaiyyət nümayəndəsi, şair, pedaqoq Fəxrəddin İbrahim də təbrik edərək, veterana həsr etdiyi şeiri səslən - dirib.

Tədbirdə T.Aslanovun hərbi xidmət dövrü və veteran kimi fəaliyyətinə dair fotoslayd nümayiş etdirilib.

Sonda T.Aslanov çıxış edərək ona göstərilən diqqət və qayğıya, 70 illik yubiley tədbirinin təşkilinə görə Daxili Qoşunların komandanlığına və şəxsi heyətinə, veteranlara dərin minnətdarlığını bildirib. O, Daxili Qoşunların veteranı olaraq üzərinə düşən ictimai vəzifələri bundan sonra da əzmlə yerinə yetirəcəyini vurğulayıb.

Tədbirdən sonra xatirə şəkli çəkdirilib.

NÜMUNƏVİ XİDMƏT

Əsgər Atəm Fətiyev 16076 saylı hərbi hissənin bacarıqlı, intizamlı hərbi qulluqçularından biridir.

O, 1998-ci il mayın 8-də Sabirabad rayonunda dünyaya göz açıb. Orta məktəbi 2014-cü ildə bitirən Atəm 2016-cı ildə Sabirabad rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb.

Verilən tapşırıqlara dəqiqliklə əməl edən əsgər A.Fətiyev hər zaman xidmətdə əzmkarlıq və dözümlülük nümayiş etdirir. Günün nizamına uyğun xidməti vəzifələrini yerinə yetirən hərbi qulluqçu keçirilən bütün məşğələlərə böyük həvəslə qatılır, daim fəallıq göstərir. Həmçinin o, nizam-intizamına, özünə qarşı tələbkarlığına görə hissə komandanlığının və əsgər yoldaşlarının dərin rəğbətini qazanıb. Hər bir insanın həyatında hərbi xidmətin mühüm əhəmiyyət kəsb etdiyini düşünən hərbi qulluqçu əsgər yoldaşlarına da xidmətdə irəliləmələri üçün köməklik göstərir.

Daxili Qoşunlarda xidmət etdiyi üçün qürur duyduğunu deyən əsgərimiz burada onlara yaradılmış hərtərəfli şəraite görə qoşunların komandanlığına dərin minnətdarlıq hissini bildirdi.

Hərbi hissənin müddətli həqiqi hərbi xidmətdə olan daha bir nümunəvi hərbçisi əsgər Əli Hüseynovdur.

O, 1998-ci il mart ayının 5-də Lənkəran rayonunda anadan olub. 2015-ci ildə Lənkəran rayon 1 nömrəli orta məktəbi bitirən Əli ona həvalə olunmuş vəzifələri və verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirir. Təhkim olunmuş silahın sazlığına, təmizliyinə daima diqqət yetirir. Hərbi xidmətdə nizam-intizamlı olmağı ən vacib amillərdən sayan hərbi qulluqçu Daxili Qoşunların əsgəri kimi üzərinə düşən vəzifələri dərindən dərk edir.

O, daha bacarıqlı olması, ayıqsayıqlığı və vəzifə borclarının icrasına məsuliyyətlə yanaşması ilə fərqlənir. Keçirilən məşğələlər zamanı fəallıq göstərən hərbi qulluqçu fiziki hazırlıq məşğələlərinə xüsusi həvəslə qatılır. Şəxsi heyət arasında qazandığı hörməti hər zaman qoruyacağını, verilən hər bir tapşırığın icrasında bütün gücünü səfərbər edəcəyini xüsusi olaraq vurğuladı.

Hər iki hərbi qulluqçumuza xidmətdə müvəffəqiyyətlər arzu edirik.

leytenant N.Ağayeva

HƏRBİ XƏBƏRLƏR

"Zərbə" PUA-nın kumulyativ döyüş başlıqlı versiyası hazırlanır

Düşmənin canlı qüvvəsini, hərbi texnikasını və hərbi obyektlərini 100 kilometr məsafədə tam müəyyən edən və məhv etmək iqtidarında olan "Zərbə KH" (kumulyativ başlıqlı) pilotsuz uçuş aparatının yaradılması istiqamətində intensiv işlərə başlanıldı.

Ötən ilin sentyabr ayında Bakıda keçirilən "ADEX-2016" Beynəlxalq müdafiə sərgisində göstərilən "Tufan" milli zirehli maşını üzrə işlər uğurla başa çatdırılıb və cari ilin fevral ayında Müdafiə Nazirliyinin müəssisələrində istehsal olunub.

Yeni yüngül pulemyotun ilk nümayişi keçirilib

Sinqapurun "ST Kinetics" şirkəti "Ultimax 100 Mk8" versiyalı yüngül pulemyotunu ilk dəfə xarici hərbi mütəxəssislər üçün nümayiş etdirib.

"AzeriDefence"in məlumatına görə, Braziliyanın Rio de Jeneyro şəhərində keçirilən "LAAD-2017" qarşıya qoyulan tələblərə cavab verib və mütəxəssislər tərəfindən müsbət qiymətləndirilib. Zirehli maşının üzərində qurşadırılmış 12,7, 14,5, 23 və 30 millimetrlik silahlarla təchiz edilmiş universal döyüş modulu da Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunub.